

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 135 (21.796)

*20 iyul 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

Prezident İlham Əliyev bu gün Bakıda keçiriləcək Azərbaycan, Türkmənistan və Türkiyə xarici işlər nazirlərinin görüşünün önəmini qeyd edərək, bu tədbirdə əməkdaşlıqla bağlı məsələlərin müzakirə olunacağına, üçtərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün müvafiq qərarların qəbul ediləcəyinə əminliyini bildirib. Dövlətimizin başçısı qeyd edib ki, Türkiyə xarici işlər nazirinin ölkəmizə səfəri bir daha ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə əlaqələrinin günü-gündən daha da gücləndiyini və bütün istiqamətlər üzrə yaxşı nəticələrin olduğunu vurğulayıb.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar Türkiyə xalqı tərəfindən böyük sevinclə qarşılanır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura iclası keçirilib

***Şura iclasında 2017-ci ilin birinci yarımilinin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva iclasda çıxış edərək bildirib ki, ölkəmizin bugünkü inkişafında Yeni Azərbaycan Partiyasının böyük xidmətləri olub. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müstəqil Azərbaycan inkişaf yolunda inamla irəliləyir.

Gündən-günə gözəlləşən, yeniləşən Naxçıvan Muxtar Respublikası da məhz Heydər Əliyev ideyalarından güc alaraq özünün yeni inkişaf mərhələsini yaşayır. İnkişaf və tərəqqiyə qovuşmuş Kəngərli rayonu da müstəqil Azərbaycanın bəhrəsi kimi həyata keçirilən siyasətin məzmununu özündə əks etdirir. Rayonda əhalinin rahat, firavan yaşayışı üçün həyata keçirilən tədbirlər dövlətimizin və partiyamızın məqsədini bütün aydınlığı ilə ifadə edir. Buna görə də rayon əhalisi xalqa əmin-amanlıq və firavan həyat bəxş edən Heydər Əliyev siyasətini dəstəkləyir.



Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı 2004-cü il iyulun 17-də təsis edilib. O zaman Şərur və Babək rayonlarının yaşayış məntəqələrindən Kəngərli rayonuna verilmiş 11 kənddə 20 Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı fəaliyyət göstərirdi ki, bu təşkilatlarda cəmi 1215 nəfər partiya üzvü birləşirdi. Üzvlərin 170 nəfəri qadın, 343 nəfəri gənclər idi. Partiyanın rayon təşkilatı qısa vaxt ərzində böyük inkişaf yolu keçərək hazırda 31 ərazi ilk partiya təşkilatında birləşən 2917 nəfər partiya üzvündən, o cümlədən 1109 (38 faiz) nəfəri qadın, 847 (29 faiz) nəfəri gənclərdən ibarətdir. 2017-ci ilin birinci yarımilində təşkilatın sıralarına 71 nəfər üzv qəbul edilib, bunlardan 44 nəfəri qadın, 62 nəfəri isə gənclərdir. Partiya üzvlərindən 82 nəfəri bələdiyyə üzvü, bələdiyyə üzvlərindən 4 nəfəri qadın, 7 nəfəri isə gənclərdən ibarətdir. 31 ərazi ilk partiya təşkilatı sədrlərindən 6 nəfəri qadın, 14 nəfəri isə gənclərdir.

Bildirilib ki, partiyanın rayon təşkilatı öz işini Yeni Azərbaycan Partiyasının V Qurultayının və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi istiqamətində, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələblərinə uyğun qurub. Ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara metodik köməkliklər göstərilib. Rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların aktiv fəaliyyətinə geniş imkanlar yaradıb. Bununla yanaşı, Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunan partiya üzvlərinin siyasi-ideoloji hazırlığı diqqət mərkəzində saxlanılıb, keyfiyyət amilinə üstünlük verilib. Bu ilin birinci yarımilində ərazi ilk partiya təşkilatlarında gənc və yaradıcı qüvvələrin Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsinə nail olunub, qadınlar şurasının fəaliyyəti genişləndirilib. 2017-ci ilin birinci yarımilində təşkilatın 1 şura, 6 idarə heyəti yığıncağı keçirilib.

Bu il Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümünün tamam olduğunu qeyd edən Sevda Quliyeva partiyanın Kəngərli Rayon Təşkilatının fəaliyyəti üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonra çıxışlar dinlənilib.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı, təşkilatın Şura və İdarə heyətlərinin üzvü Kamal Ələkbərov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək görülmüş işləri müzakirə edib, qarşıya qoyulmuş vəzifələrdən danışıblar.

✍ **Səbuhi HƏSƏNOV**

## “Sabit vergi və onun tətbiqi” mövzusunda maarifləndirici tədbir



***Culfa Rayon Vergilər Şöbəsində “Sabit vergi və onun tətbiqi” mövzusunda maarifləndirici tədbir təşkil edilib. Tədbirdə Culfa rayonunda fərdi əmək fəaliyyəti ilə məşğul olan rayon sakinləri iştirak ediblər.***

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən keçirilən tədbiri muxtar respublika vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov açaraq bu ilin birinci yarısında sabit verginin tətbiqi ilə bağlı görülən işlər barədə məlumat verib, fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərə, ümumilikdə, 253 sabit vergi qəbzinin verildiyini, dövlət büdcəsinə 5560 manat ödənildiyini deyib, Culfa rayonunda bu sahədə işin miqyasının genişləndirilməsinin vacibliyindən söhbət açıb.

Qeyd edilib ki, 2017-ci il yanvar ayının 1-dən qüvvəyə minən “Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Qanun milli vergi qanunvericiliyində bir sıra mühüm yeniliklərin tətbiq olunmasına imkan yaradıb. Onlardan biri də fərdi əməklə məşğul olan şəxslərlə bağlıdır. Belə şəxslər vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəməlidirlər. Sabit vergi fərdi fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq, ödədiyi dəyişilməz vergi məbləğidir. Belə şəxslər kiçik həcmdə gəlirlərə malik, muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan vətəndaşlardır. Bundan başqa, dayə, fərdi sürücü, ev təsərrüfatında təmizlikçi, bağban, aşpaz, gözətçi və nəqqaşlıqla məşğul olanlar da sabit vergi ödəyiciləridir.

Vurğulanıb ki, sabit vergi ödəyiciləri vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla yerinə yetirməlidirlər. Bu şəxslərin vergi orqanına hər hansı bəyannamə təqdim etməsi artıq nəzərdə tutulmur. Sadələşdirilmiş verginin bu qəbildən olan ödəyiciləri üçün sabit vergi mexanizminin tətbiqi fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına, eyni zamanda məşğulluq sahəsində uçot sisteminin dürüstlüyünün təmin edilməsinə xidmət edir.

Tədbirdə muxtar respublika Vergilər Nazirliyinin şöbə rəislərindən Zahid Qənbərovun, Rəşad Əliyevin çıxışları olub. Çıxışlarda sabit vergi və onun tətbiqi, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi, həmin məbləğin ödənilməsi haqqında qəbz almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə tətbiq edilən maliyyə sanksiyalarından söhbət açılıb. Bundan başqa, çıxış edənlər iştirakçılara aylıq sabit verginin məbləği, fəaliyyət göstərilən ərazi üzrə tətbiq olunan əmsallar, sabit vergi ödəyicilərinin qeydiyyata alınması prosedurları, sabit vergi üzrə qəbz almadan fəaliyyət göstərildikdə və nağd pul hesablaşmalarının aparılması qaydaları pozulduqda tətbiq olunan maliyyə sanksiyasının məbləği haqqında ətraflı məlumat veriblər.

Bildirilib ki, sabit verginin ödəyicisi olan fiziki şəxs vergi orqanında uçota alınmayıbsa, qeydiyyatda olduğu ərazinin vergi orqanına müraciət etməli və VÖEN almalıdır. Bundan başqa, fiziki şəxs fəaliyyətə başlayanadək vergi orqanından sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi əldə etməlidir. Bu zaman verginin ödənilməsini təsdiq edən ödəniş sənədi müraciətə əlavə edilməlidir. Qəbz yazılı müraciət olunduqda iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət zamanı isə real vaxt rejimində verilir.

Culfa Rayon Vergilər Şöbəsinin rəisi Qurban Piriyev çıxışında bu ilin birinci yarısında Culfa rayonunda sabit vergi üzrə görülən işlər, qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Sonra seminar iştirakçılarının sualları cavablandırılıb, mövzu ilə əlaqədar müzakirələr aparılıb, fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərə sabit vergi qəbzləri və eyniadlı məlumatlandırıcı vərəqələr paylanıb.

✍ **Səbuhi HÜSEYNOV**

## “İmamzadə” türbəsində təmir-bərpa işləri aparılır

Qədim və zəngin tarixi keçmişi ilə fərqlənən Naxçıvan çoxsaylı abidələr diyarı kimi tanınır. Bu mühüm maddi və eyni zamanda mənəvi sərvətlərimizin sırasında muxtar respublikanın müxtəlif bölgələrində yerləşən imamzadələrin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.



Naxçıvan şəhəri ərazisindəki “İmamzadə” türbəsi özündə qədim və zəngin sənətkarlıq xüsusiyyətlərinə malik türk və müsəlman memarlığı ənənələrinin qarşılıqlı vəhdətini ehtiva edir. Belə ki, VIII-IX əsrlərin qovşağında Azərbaycan ərazisində xalq tərəfindən yeni qəbul edilmiş İslam dini və müsəlman mədəniyyəti elementləri insanların, xüsusilə də sənətkarların, memarların şüuruna kor-koranə surətdə hopmayıb. Qədim mədəni-mənəvi dəyərlərin bu yeni xüsusiyyətlərlə zənginləşməsi sayəsində əvvəlki abidələrdən daha fərqli, möhtəşəm və həmin dövr üçün yenilikçi xarakterli sənətkarlıq nümunələri meydana gəlib.

Ötən aydan etibarən “İmamzadə” Kompleksinə daxil olan “İmamzadə” türbəsində təmir-bərpa işlərinə başlanılıb. İlkin mərhələdə bərpaçılar tərəfindən türbənin fasad və daxili hissəsində divarlar köhnə üzlük boya və materiallardan təmizlənib, tarixi tikilinin aşağı hissəsinin rütubətdən qorunması üçün betonlama işləri həyata keçirilib. Bundan başqa, türbənin arxa hissəsindəki torpaq qatı götürülüb, istinad divarları yaradılıb, yağış sularının buraya zərər verməməsi üçün sistemlər quraşdırılıb.

Obyektin iş icraçısı Şöhrət Qocəliyevin bildirdiyinə görə, ərazidə bərkitmə başa çatdırıldıqdan sonra abadlıq işlərinə start veriləcək, burada müasir işıqlandırma sistemləri qurulacaq. Təmir-bərpa işləri başa çatdırıldıqdan sonra “İmamzadə” Kompleksinin ərazisi şəhərimizin İslam mədəniyyətinə aid ən görməli yerlərindən birinə çevriləcək. Bu isə Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar görülən işlərin tərkib hissəsi kimi də əhəmiyyətlidir.

Qeyd edək ki, Naxçıvanda “İmamzadə” ziyarətgahları böyük bir tarixi müddət ərzində İslam dininin müqəddəs məkanlarından biri hesab edilib və edilməkdədir.

**Xəbərlər şöbəsi**

**Kənd təsərrüfatı**

# Muxtar respublikada üzümçülüyün inkişafı istiqamətində kompleks tədbirlər görülür, yeni üzümçülük təsərrüfatları yaradılır

***Aparılan tədqiqatlardan da məlum olduğu kimi, hələ miladdan 3 min il öncə qədim Naxçıvan diyarında yaşayan türk tayfalarının əsas məşğulluq sahələrindən biri də üzümçülük olub. Ona görə də uzun illərdən bəri qədim diyarda xalq seleksiyası nəticəsində çoxlu sayda qiymətli üzüm sortları yaradılaraq nəsildən-nəslə ötürülüb. İslam dininin qəbul edilməsinə qədərki dövrdə bu ərazidə süfrə üzümçülüyü ilə yanaşı, üzümdən, əsasən, şərab məhsullarının hazırlanmasına daha çox diqqət yetirildiyindən üzüm bağlarında texniki sortlar üstünlük təşkil edib. Lakin İslam dininin qəbul edilməsi ilə əlaqədar şərab məhsullarının istehsalı qadağan olunduğuna görə üzüm bağlarında daha çox süfrə sortlarının becərilməsinə başlanılıb. O dövrdə üzümdən müxtəlif spirtsiz məhsulların, həmçinin kişmiş və mövüc hazırlanmasında istifadə olunub, hətta belə məhsullar Yaxın Şərq ölkələrinə ixrac edilib. Hazırda Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda saxlanılan və Naxçıvan ərazisindən tapılmış VII əsrə aid üzüm salxımları ilə bəzədilmiş tunc at fiquru bu diyarın yerli əhalisinin çox qədimdən üzümçülüklə məşğul olduğunu bir daha təsdiq edir.***



*Üzümçülük dünən və bu gün*

Sovet dövründə, xüsusən 1969-1982-ci illərdə muxtar respublikada üzümçülük inkişaf etdirilsə də, 1985-ci ildən başlayaraq keçmiş sovet rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı "mübarizə" adı altında həyata keçirdiyi "tədbirlər" muxtar respublikamızda da üzümçülüyün inkişafına ciddi zərbə vurub. Bunun nəticəsi idi ki, artıq ötən əsrin 90-cı illərinin əvvəllərində hektarlarla üzüm bağları quru çölü xatırladırdı. İnsanların alın təri tökərək halal zəhmətlə çörək qazandıqları bağlar isə muxtar respublikaya mavi yanacaq axınının kəsilməsindən sonra məhv edilib, süfrə üzümü kolları qırılaraq yanacaq kimi istifadə olunub. Muxtar respublika əhalisi üçün əsas qazanc mənbəyi olan üzümçülüyün bir sahə kimi ləğv edilməsi əhalinin məşğulluğuna da böyük zərbə vurub, bağlarda və şərab zavodlarında çalışanların hamısı işindən məhrum olub. Çünki istehsalçılarla istehlakçılar arasında ənənəvi münasibətlər pozulub və nəticədə, bir sıra şərab istehsalı müəssisələri fəaliyyətini dayandırıb.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra bu sahəyə diqqət yenidən artıb. Ulu öndər üzümçülük və şərabçılığı müstəqil Azərbaycan Respublikasında yeni bazar münasibətləri şəraitində inkişaf etdirmək üçün hüquqi bazanın yaradılması məqsədilə 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Qanunun tətbiq edilməsi barədə Fərman imzalayıb. Dahi şəxsiyyətin bu sahədə başlatdığı iş hazırda onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin müvafiq sərəncamı əsasında təsdiq olunan "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" ölkəmizdə, eləcə də muxtar respublikamızda üzümçülük sahəsində dövlət siyasətinin və strategiyasının həyata keçirilməsində, müvafiq təşkilatların bu sahədəki işlərinin koordinasiyasının və sürətləndirilməsinin təmin edilməsində mühüm rol oynayır.

Həmin dövlət proqramı muxtar respublikada da üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini gücləndirir, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına əhəmiyyətli təsir göstərir. Onu da qeyd edək ki, 1995-ci ildən başlayaraq muxtar respublikada aborigen üzüm sortlarının kompleks şəkildə tədqiq olunması, qədim üzümçülük ənənələrinin bərpa edilməsi, üzümçülüklə məşğul olan təsərrüfatçıların yüksəkkeyfiyyətli, immunitetli, müxtəlif vaxtlarda yetişən və iqtisadi səmərəliliyi yüksək olan yeni sort və formalardan ibarət əkin materialları ilə təmin edilməsi öz bəhrəsini verməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada aqrar sahənin, o cümlədən üzümçülüyün inkişaf etdirilməsində də mühüm rol oynayır. Bunun nəticəsində bu gün muxtar respublikada yüzlərlə hektar üzüm bağları salınıb, istehsal artırılıb. Qədim Naxçıvan diyarının torpaq-iqlim şəraiti burada dadı və tamı ilə seçilən müxtəlif üzüm məhsullarının dünya bazarlarına və sərgilərə çıxarılması, yüksək mükafatlara, diplomlara layiq görülməsi də bu baxımdan təsadüfi deyil.

*Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərurda üzümçülük inkişaf etdirilir*

Bölgədə üzümçülüyün geniş sənaye miqyaslı inkişafının əsası ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulub. Burada bir məqama toxunmaq yerinə düşər. Belə ki, Şərur rayonunda qədim zamanlardan üzüm becərilsə də, artıq sovet dövründə doğma torpağın səxavətinə bələd adamların arzusunun əksinə olaraq pambıq əkininə göstəriş verilmişdi. Ancaq Naxçıvanın iqlimi pambıqçılıq üçün əlverişli deyildi. Qozalar hasilə gəlib yığılmaq vaxtına çatanda soyuqlar düşür, məhsul zay olurdu. Üzümün isə yığımı sentyabr ayından başladığından məhsul vaxtında tədarük edilirdi. Bu mənada, 1969-cu ildən sonra ulu öndər Heydər Əliyevin göstərişi ilə üzüm plantasiyalarının salınması üçün qəbul edilən qərar şərurlulara böyük bir töhfə oldu. Sevə-sevə dədə-baba məşğuliyyətlərinə qayıdan kənd adamlarının gün-güzəranı həqiqi mənada dəyişdi. Bu qərarın uğurlu icrası isə 70-ci illərin sonlarında Azərbaycanın üzümçüləri içərisində Şərur üzümçülərinə liderlik qazandırdı. Bu illərdə respublikada yığılan 1 milyon ton məhsulun 10-12 faizi Şərur rayonunun payına düşürdü.

Rayon ağsaqqalları bildirirlər ki, Şərurda məhz üzümçülüyün inkişaf etdirilməsindən sonra gözoxşayan evlər tikilib, şəxsi avtomobillərin sayı artıb. O vaxtlar ailələrin əksəriyyəti çoxuşaqlı idi və onların dolanışığı, əsasən, bu sahədən gələn gəlirlə təmin olunurdu.

Bu gün Şərur rayonunda 93 hektar sahədə üzüm bağı var. Onlardan 91 hektarı barverəndir. Ötən il rayonun ərazisindəki üzüm sahələrinin hər hektarından 157,8 sentner məhsul yığılıb. Cari ilin yaz aylarında iməciliklərdə 1 hektar sahəyə müxtəlif sortlar olmaqla, 6 min üzüm çubuğu əkilib. Onlardan rayon ərazisində yerləşən üzüm bağlarını genişləndirmək üçün istifadə olunacaq.

Yaxşı haldır ki, üzümçülər o vaxt bağlar sökülədə qiymətli növləri seçib həyətyanı sahələrində becəriblər, kökünün kəsilməsinə imkan verməyiblər. Bu gün isə o sortları pay torpaqlarına köçürüblər. Yeni üzüm bağları salan Əbdürrəhman Mehdiyev, Sucəddin Seyidov, Knyaz Cabbarov, Abdulla Adıgözəlov bu sahəyə daha çox maraq göstərirlər.

Ötən günlərdə Şərur rayonuna növbəti səfərimizdə Çərçiboğan kəndi ərazisində gördüyümüz bir mənzərə bizi sevindirdi. Burada salınan üzüm bağı böyük bir ərazini əhatə edir. Bu təsərrüfatın sahibi Sucəddin Seyidovla söhbət zamanı o bildirdi ki, Naxçıvan üzümün yetişdirilməsi və onun emalı ilə məşğul olan qədim diyardır. Burada yüzdən çox üzüm sortu olub. Sapsarı kəhrəba kimi hazan, kişmişi üzümləri sağalmaz dərdlərə şəfa verir, xəstənin gözlərinə işıq, canına qüvvət gətirir. Şəfayi üzümü, sözün əsl mənasında, can dərmanıdır. Ən tezyetişən, uzun müddət saxlamağa davamlı, ən çox məhsul verən üzüm sortları bizim diyarda becərilib, bu gün də becərilməkdədir. Üzümçülüyün inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər belə bir təsərrüfatın yaradılmasına imkan verib. Sahibkar deyir: "Ötən il 0,25 hektar sahədə üzüm bağı salmışıq. Biz yerli məhsuldar sortların əkininə üstünlük veririk. Ancaq bununla belə, xarici ölkələrdən gətirilən üzüm sortlarına da maraq göstəririk. Hazırda üzüm bağına Türkiyə mənşəli 100 ədəd atasarısı, 100 ədəd retkol fidanı əkilib. Bu üzüm sortları həm görünüşünə görə, həm də məhsuldarlıq baxımından çox sərfəlidir".

Sucəddin Seyidovun sözlərinə görə, bu bağlara yaxşı qulluq edilərsə, yaxşı qazanc əldə etmək mümkündür. Üzüm o qədər susevən bitki deyil. Kolu vaxtında budanmalı, qış aylarında soyuqdan qorunmalıdır. Hazırda bu bağlarda onlarla gənc çalışır. Gələcəkdə həmin gənclər arasında üzümçülük sahəsində yaxşı mütəxəssislər yetişəcək və bəlkə də, burada çalışanların da özlərinə məxsus üzümçülük təsərrüfatları olacaqdır. Bağların suvarma suyu ilə təmin olunması üçün də lazımi tədbirlər görülüb. Belə ki, çay ətrafında 2 artezian quyusu qazılıb. Bu da imkan verir ki, üzüm bağları keyfiyyətlə becərilsin.

Bəli, muxtar respublikada yeni üzüm plantasiyalarının salınması bir daha belə deməyə əsas verir ki, əhalinin süfrə üzümünə, üzüm emalı və şərabçılıq sənayesinin isə xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsinə, yeni iş yerlərinin yaradılmasına, kənd əhalisinin gəlirlərinin artmasına şərait yaradacaqdır. Bundan başqa, dövlət büdcəsinə və yerli büdcəyə daxilolmalar artacaq, kənd əhalisinin sosial şəraiti yaxşılaşacaq, üzümçülük və şərabçılıqla bağlı sahələrin inkişafı təmin ediləcəkdir.

**Ramiyyə ƏKBƏROVA**

***Ağlım kəsəndən kəndimizdə taxıl tədarükü başlanan günün insanlara əsl bayram sevinci yaşatdığını görmüşəm. Kənd ağsaqqalları taxılı biçiləcək sahənin kənarına yığışar, biçinin başlanmasını gözləyərdilər. Uşaq marağı ilə biz də sahənin kənarına toplaşardıq. Yaşlılar çörəyin müqəddəsliyindən danışardılar.***

# Torpağa düşməsin havayı bir dən...



1941-1945-ci illərdə və bir qədər də sonrakı dövrdə insanların çörəklə imtahana çəkilməsi ilə bağlı söhbətlərə hamımız maraqla qulaq asardıq. Nə isə... Zəmilərdə işləyən kombaynların səsi ətrafın sükutunu pozur, çörək ətri verən taxılın tezliklə tədarük olunması, sahələrin sarı sünbülünü vaxtında toplamaq üçün qüvvələr səfərbərliyə alınırdı. O dövrdə tədarük olunan taxıl ictimai təsərrüfatların anbarına daşınırdı. Bu günün torpaq mülkiyyətçisi isə taxılı tədarük edən kimi özünün illik ruzisini, gələn təsərrüfat ilində əkəcəyi toxumu götürmək, yerdə qalanını isə dəyirmana satmaq imkanları qazanıb və minnətdarlıq hisslərini gizlətmir ki, ona belə şərait yaradılıb.

Bu günün həqiqəti odur ki, artıq muxtar respublikamızda strateji məhsul sayılan taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi prioritet vəzifəyə çevrilib. Torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslər ciddi şəkildə nizama salınıb. Hər il muxtar respublikaya yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına dükan-bazarlarımızda çörək bolluğu yaranıb. Öz istehsalımız olan belə çoxçeşidli məhsulların keyfiyyətinə, dadına-tamına söz ola bilməz. Bütün bunlar digər yerlərdən muxtar respublikaya gətirilən taxıl məhsullarının qarşısını birdəfəlik alıb. İndi muxtar respublikamızın ən ucqar dağ kəndlərində belə, çörəkbişirmə müəssisələri fəaliyyət göstərir.

Bu günlər qədim diyarımızda artıq daha bir məhsul dövrü yaşanır. Belə ki, bir neçə gündür, taxıl tədarükünə başlanılıb. Mövsüm ərzində əkin sahələrinə aqrotexniki qulluq diqqət mərkəzində saxlanılıb, zəmilər vaxtlı-vaxtında suvarılıb, məhsuldarlığı yüksəltmək üçün gübrələr verilib.

17 iyul 2017-ci il tarixə olan məlumata görə, 21 min 392 hektardan artıq sahənin taxılı tədarük olunub. Taxıl tədarükünə kifayət qədər kombayn cəlb edilib. Toplanmış məhsulun daşınması üçün də tədbirlər həyata keçirilib, kifayət qədər texnika ayrılıb. Məhsul tədarükünə və daşınmasına cəlb edilən texnikalar əvvəlcədən işlək vəziyyətə gətirilib, kifayət qədər yanacaq və ehtiyat hissələri əldə olunub. Bu isə min bir zəhmətlə hasilə gətirilən məhsulun vaxtında toplanacağına əminlik yaradıb.

Ordubad rayonunun Dəstə, Vənənd, Düylün, Aza kəndlərində ilk günlərin nəticələri belə deməyə əsas verir ki, sahələrdə bol məhsul yetişdirilib, çəkilən zəhmət hədər getməyib. Culfa rayonunun Yaycı, Gülüstan, Ərəzin, Camaldın, Bənəniyar, Babək rayonunun Nehrəm, Çeşməbasar, Yarımca, Güznüt, Kərimbəyli, Araz, Nəcəfəlidizə, Qahab, Cəhri, Kəngərli rayonunun Böyükdüz, Şahtaxtı, Qıvraq, Xok, Təzəkənd, Çalxanqala, Şərur rayonunun Aşağı Daşarx və başqa yaşayış məntəqələrində taxıl tədarükü sürətlə davam etdirilir.

Muxtar respublikanın ən çox taxıl əkilən bölgələrindən biri Şərur rayonudur. Ötən ilin payızında və cari ilin yazında şərurlular 4144 hektarda əkin keçiriblər. Mövsüm ərzində bütün aqrotexniki tədbirlərə əməl olunub. Bunun nəticəsidir ki, muxtar respublika üzrə yüksək məhsuldarlıq sayıla biləcək rəqəm qeydə alınıb: 31,7 sentner. İyulun 17-nə olan məlumata görə, sahələrdən 7674 ton taxıl tədarük edilib.

Havaların kəskin istiləşdiyi bir vaxtda zəmilərdə məhsul tədarük olunmasının çətinliyini, yəqin ki, oxucularımız da təsəvvür edər. Ancaq bir məsələ var ki, yetişmiş məhsulun yığılmasını bir an da yubatmaq olmaz. Bunu sərhəd bölgəsi Sədərək rayonunun timsalında da görmək olar. Bu bölgədə də taxıl tədarükü kampaniyası sürətlə davam etdirilir. Sədərəklilər 2440 hektar sahədə məhsul yetişdiriblər. Artıq 1571 hektar sahədə taxıl tədarükü başa çatıb. Bu rayonda da məhsuldarlıq 32 sentner təşkil edib.

Məhsul yığımında üzləşilə biləcək çətinliklərin tezliklə aradan qaldırılmasını təmin etmək üçün rayonlarda qərargahlar yaradılıb.

Taxıl tədarükü prosesi ilə yaxından tanış olmaq üçün Babək rayonunun Nehrəm kəndində olduq. Torpaq mülkiyyətçiləri, mexanizatorlar, kənd ağsaqqalları ilə görüşdük. Nehrəm bələdiyyəsinin sədri Tofiq Abutalıbov uzun illər kənddəki ictimai təsərrüfata rəhbərlik edib. Torpağın dilini yaxşı bilir. Söhbətə doğma kəndi haqda məlumatla başlayır. Deyir ki, torpağa halal ruzi-bərəkət mənbəyi kimi baxan nehrəmlilər zəhmətkeş insanlardır. Onlar torpağın hər qarışından səmərəli istifadə edir, bəhrələrini də görürlər. Nehrəm torpaqları müxtəlif bitkiçilik məhsullarının əkilib-becərilməsi üçün çox əlverişlidir. Ona görə də uzun illərdir ki, kənd adamları əkinçilikdə, strateji sahə olan taxılçılıqda zəngin təcrübəyə malikdirlər. Qazanılan təcrübə, bu gün taxılçılığın inkişafına göstərilən qayğı ilbəil məhsuldarlığın yüksəldilməsinə, insanların həyat tərzinin yaxşılaşmasına təsir göstərən başlıca amillərdir.

Bu rayonda 10420 hektar sahədə məhsul yetişdirilib. İyulun 17-nə olan məlumata görə, 7982 hektar sahənin məhsulu tədarük olunub, məhsuldarlıq 30,7 sentner təşkil edib.

Muxtar respublikanın digər rayonlarında da taxıl tədarükü kampaniyası mütəşəkkil surətdə davam etdirilir.

*Bu yazını hazırlayarkən yadıma Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğunun sözləri düşdü:*

***Torpağa düşməsin havayı bir dən***
***Çörək bol olarsa, basılmaz Vətən.***

*Bu həqiqət artıq dərindən dərk edilən aksiomdur. Ona görə də taxıl tədarükünə cəlb edilənlər elin varını vaxtında və itkisiz toplamağa səy göstərirlər. Bilirlər ki, bu gün toplanılan məhsul sabah süfrəmizin çörəyidir.*

**✍ Muxtar MƏMMƏDOV**

Mənəvi dünyamız

# Tərbiyə və mütaliə şəxsiyyətin formalaşmasında mühüm rol oynayan başlıca amillərdir

***Şəxsiyyətin inkişafında, gənc nəslin hərtərəfli yetişməsində tərbiyə amili tarixən mühüm əhəmiyyət kəsb edib. Antik dövrün filosofu Platon deyirdi ki, dövlətin gücü insanların tərbiyəsindən asılıdır. Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi uşağın formalaşmasında tərbiyənin rolunu qiymətləndirərək deyirdi: "... Uşaqlıq yaş ağaca bənzər, təzə yaş ağacı hər nə qədər əyri olsa, düzəltmək asandır və insanın da kiçikliyində tərbiyə qəbul etməsi vazeh mətləblərdəndir". Tərbiyə insanın inkişafına təsir göstərsə də, müəyyən mənada inkişafdan asılıdır və insanın inkişaf səviyyəsinə əsaslanır. Bu qarşılıqlı münasibətlərin dialektikası da özünü məhz burada göstərir.***





Məlumdur ki, uşaqlarda humanist keyfiyyətlərin formalaşdırılması elə bir yüksək əxlaqi borc, vəzifədir ki, bütün dövrlərin zəka və fikir sahibləri, mütəfəkkirlər ona biganə qalmamışdır. Aristoteldən sonra "ikinci müəllim" adını qazanmış Əbu Nəsr Məhəmməd əl-Fərabi (870-950) Şərqdə orta əsr fəlsəfəsinin banisi olmuşdu. İnsanların, xüsusilə də gənclərin tərbiyəsində Fərabi mənəvi tərbiyəni ön plana çəkmişdir.

İbn Sina isə pedaqoji tərbiyəyə yaradıcı iş kimi baxır, uşağın təbiətinə, temperamentinə bir həkim, psixoloq kimi yanaşırdı. O, uşaqlarda fiziki sağlamlığı, əqli, estetik və əxlaqi tərbiyəni ön plana çəkirdi.

Tərbiyə işinin əsas məqsədi böyüyən nəsildə əsl vətəndaşlıq keyfiyyətlərini formalaşdırmaqdan ibarət olmalıdır. Çünki təhsil insanın özünü və dünyanı dərk etməsinin təminatçısı rolunda çıxış edir.

Milli tərbiyənin mühüm komponentlərindən danışarkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu müdrik kəlamını xatırlatmaq yerinə düşər: ***"Tərbiyə geniş məna daşıyır. Tərbiyə təkcə o deyil ki, gedib vətəni silahla müdafiə edəsən. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı tərbiyədən doğan şeydir. İnsan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir".***

Tarixə nəzər salsaq, Azərbaycanda bir sıra qədim tərbiyə və təhsil ocaqlarının fəaliyyət göstərmiş olduğunu görərik. Bildiyimiz kimi, Zərdüştlük qədim və erkən orta əsrlərdə Azərbaycan, İran, Orta Asiya və digər ölkələrdə geniş yayılmış bir fəlsəfə, ədəbi abidə, pedaqoji fikir və din olmuşdur. Mənbələrdən məlumdur ki, islamiyyətin yayılmasına qədər Azərbaycanda Zərdüşt məktəbləri geniş fəaliyyət göstərmiş atəşgədə və atəşgahlar Zərdüştlüyün həm ibadət yeri, həm də təlim, tədris mərkəzləri rolunu oynamışlar.

Zərdüşt məktəbində yetişən gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinə xüsusi fikir verilir və müəllimin rolunu yüksək qiymətləndirib, təlim-tərbiyədə ataların övlada tərbiyə vermələrini xüsusi qiymətləndirirdi. Azərbaycanda islamiyyətin qəbulundan sonra zaviyələr, xanəgahlar, dərgahlar təlim-tərbiyə və təhsil ocaqları kimi fəaliyyətə başladı. Bu dini və tədris müəssisələrinin davamı kimi mədrəsələr yarandı.

Hələ orta əsrlərdə Azərbaycan xalqının mədəni həyatı, xüsusən də təlim və tərbiyə məsələləri diqqət mərkəzində olmuşdur. Akademik İsa Həbibbəylinin fikrincə, Azərbaycanda ilk ali məktəb sayıla bilən iki böyük Naxçıvan mədrəsəsi olmuşdur.

"Mənsur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan" ("Naxçıvan mədrəsəsi tədrisinin təsdiqinə dair fərman") Azərbaycan Atabəyləri dövründə (1136-1225) Naxçıvanda tikilmiş iki mədrəsəyə aiddir.

Elxanilər tərəfindən verilən bu fərmanın təhlilinə əsasən İslamın intibah dövründə Naxçıvanda və bütövlükdə, Azərbaycanda məktəblərin, tədrisin vəziyyəti haqqında fikir söyləmək olar. Fərmana görə, müəllim-müdərris müəyyən şərtlərə əməl etməlidir. Çalışqan tələbələri öz ruhani oğlu hesab etməli, tədris və təlim zamanı şagirdlərə əziyyət verməməli, onları yormamalıdır. Şagirdlərin təbiəti, istedad və bilik dərəcələri müxtəlif olduğundan müdərris hər bir şagirdin fərdi xüsusiyyətinə müvafiq dərs verməli, dərsi anlaşılacaq bir tərzdə aparmalıdır. Həftədə bir dəfə şagirdlər arasında dərslərin müzakirəsi keçirilməli, keçilən mövzuların mənimsəmə dərəcəsini yoxlamaq üçün müdərris ayda bir dəfə imtahan təşkil etməli, yaxşı oxuyan tələbələri başqasına tanıtmalıdır.

Sənəddə, həmçinin şagirdlərin də vəzifələri müəyyənləşdirilmişdir: 1) fərmanda göstərilən şərtləri həyata keçirən müdərrisi digərlərindən üstün tutmalıdır; 2) elm təhsil etmək istəyən şagird tənbəllik və səhlənkarlıqdan uzaq olmalıdır, dərsləri təkrar etməkdən yorulmamalıdır; 3) dərs zamanı diqqətli olmalı, anlaşılmayan məsələyə dair sual verməkdən çəkinməməlidir; 4) şagirdlər keçən dərsi mənimsəmədən yeni dərsə başlanmamalıdır; 5) şagirdlər elm təhsili ilə kifayətlənməyib, eyni zamanda əxlaq təmizliyinə və doğruluğa da diqqət verməlidir.

"Ədəb qaydaları"nı tərtib edən Naxçıvan pedaqoqlarının bu irsi bu gün də insanın ağlına, zəkasına qida və qüvvət verir. Eyni zamanda gələcək üçün daha yaxşı perspektivin yaradılmasına təhsil və tərbiyənin daha optimal üsulunun tapılmasına yardım edir.

Reallıqdır ki, hərtərəfli inkişaf etmiş kamil insanın yetişməsində mühüm və həlledici rolu olan vasitələrdən biri də mütaliədir. Ardıcıl, məqsədyönlü kitab oxumayan insan kamillik zirvəsinə yüksələ bilməz. Mütaliə insanların mənəvi həyatının formalaşmasına, hərtərəfli inkişafına dərin təsir edir. Oxunan mətnin növündən, janr və mövzusundan asılı olmayaraq, mütaliə insanın həyatında mədəniyyətə yiyələnmənin ən mühüm vasitəsi kimi çıxış edir. Mütaliə bilik əldə etmənin, elmə yiyələnmənin, elmin zirvəsinə yüksəlmənin ən mühüm vasitəsi olduğu kimi, həm də tərbiyə prosesinin tərkib hissəsidir.

Tarixi keçmişimiz bu günlə sıx bağlı olduğu kimi, bu gün də gələcəklə sıx bağlıdır. Keçmişin mütərəqqi irsini isə biz tarixə müraciət edib, kitab oxumaqla öyrənə bilərik. Dahi şairimiz Nizami Gəncəvi deyirdi:

*Bilik öyrənməyi ar bilən hər kəs*
*Dünyada mərifət qazana bilməz.*

"Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür" – bunu isə ingilis filosofu Herbert Spenser deyib. Qarşılaşdırılmış iki fərqli fikir, əslində, bir-birinin məntiqi davamıdır. Yəni hər bir fikirdə cəmiyyət əxlaqının mənbəyində kitabın, mütaliənin dayandığı aydın olur. Bəs kitab nə üçündür, onun mahiyyətini, faydasını və vacibliyini dərk edirikmi? Öncə deyək ki, kitab oxumaq insanın intellektual səviyyəsinə, dünyagörüşünə müsbət təsir göstərir. Bundan başqa, kitab bəşər həyatında qalacaq miras, inkişaf etdirən və ziyalandıran ünsürdür. Kitab elm və mərifət dünyasına açılan qapıdır. Mütəxəssislərin fikrincə, mütaliə insanı kamilləşdirir, onun nitq qabiliyyətini inkişaf etdirir, insanı bəd əməllərdən saxlayır və onu yaxın-uzaq keçmişlərə aparır. Kitablar insan həyatında mühüm rol oynayır. Kimi həmin kitablardakı qəhrəmanların müsbət keyfiyyətlərini mənimsəyərək, kimi də oradan öyrəndiklərini həyatda tətbiq edərək yaşayışını qurur.

Yaxşı kitab aqil insanın həyatına həmişə işıq salan, onu tərbiyələndirən ən mühüm vasitə olub. Almaniyalı professor Fişerin sözlərinə görə, "insan düşündükcə beyin tutumu, düşünmə imkanları və qabiliyyəti inkişaf edir. Beyin işlədikcə inkişaf edən, istifadə edilmədikdə isə ən sürətlə kütləşən insan orqanıdır. Bu kütləşməni aradan qaldırmaq üçün bir həftə zehni məşğələ etmək lazımdır".

Xalqın tərbiyə sahəsində tarixboyu irəli sürdüyü fikir və ideyaların bir qismi onun adət-ənənələrində, etnoqrafik və tarixi sənədlərdə, folklor materiallarında ifadə olunmuşdur.

Xalqımızın müdrik kəlamlarının çoxu "Oğuznamə"lərdə toplanmışdır. Həmin müdrik kəlamlar yetişən gənc nəslin təlim-tərbiyəsində əhəmiyyətli rol oynayır. Bu sahədə "Kitabi-Dədə Qorqud" dastanlarının da mühüm təsiri vardır.

Onu da qeyd edək ki, "Kitabi-Dədə Qorqud", "Bilqamıs", "Alp ər Tunqa", "Oğuz", "Manas" kimi dastanlar Türk dünyası və xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Məsələn, Davdağın Alban hökmdarı Cavanşirin ölümünə həsr etdiyi şeirində onun mərdliyi, əxlaqi-mənəvi keyfiyyətləri, vətənpərvərliyi tərənnüm edilir. Bu keyfiyyətlər bu gün də gənc və yeniyetmələr üçün vətənpərvərlik nümunəsidir.

Mütaliə insanın idraki fəaliyyətinin bir növü kimi tərbiyə prosesində digər informasiya növləri ilə müqayisədə əvəzedilməz üstünlüklərə malikdir. Ona görə də, mütaliəni tərbiyə prosesindən ayırmaq düzgün deyildir. İnsanlarda mütaliənin istiqamətləndirilməsində əsas rol oynayan kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur.

**Aytəkin QƏHRƏMANOVA**
***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru***

# Yaradıcı gənclərlə bağlı dəyirmi masa təşkil olunub

***İyulun 19-da Naxçıvan Şəhər Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Yaradıcı gənclər: imkanlar, tələblər və nəticələr" mövzusunda keçirilən dəyirmi masada nazirliyin yaradıcı gənclərlə iş üzrə baş məsləhətçisi Kənan Tağızadə giriş sözü ilə çıxış edərək bildirib ki, ölkəmizdə gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlayıb, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini prioritet elan edib.***

Qeyd olunub ki, bu gün dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Muxtar respublikada mədəniyyət, mədəni irs, incəsənət, təhsil, turizm sahəsində istedadlı və yaradıcı gənclərlə əlaqəli tədbirlər, dəyirmi masalar təşkil olunur. Gənc istedadların aşkara çıxarılması, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə müsabiqələr, intellektual oyunlar, sərgilər keçirilir. Gənc nəslin mənəvi, bədii və estetik dünyagörüşünün formalaşdırılması, onlarda vətənpərvərlik ruhunun daha da yüksəldilməsi məqsədilə keçirilən müsabiqələr və müsiqili-intellektual oyunlar xüsusilə əhəmiyyət kəsb edir. Bu gün keçirilən dəyirmi masa da bu məqsədə xidmət edir.

Sonra dəyirmi masanın iştirakçıları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Rəsul Babayev, Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi İlahə Haqverdiyeva, Mədəniyyət və Turizm Nazirliyinin baş məsləhətçisi Qumral Məmiyeva, Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, Naxçıvan Dövlət Filarmoniyasının direktoru Ariz Ağayev, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov, Naxçıvan Musiqi Kollecinin müəllimi İnci Əlizadə çıxışlarında yaradıcı, istedadlı gənclərin formalaşması, onların istedad və qabiliyyətinin üzə çıxarılması üçün yaradılan imkanlardan, onlara göstərilən dövlət qayğısından söhbət açıblar. Dəyirmi masanın iştirakçıları gənclərin dünyagörüşünün formalaşması, mənəvi dünyasının zənginləşdirilməsi ilə bağlı fikir və mülahizələrini bölüşüb, yaradıcı təşkilatlarla əlaqələrin qurulması yollarından danışıblar.

**Əli RZAYEV**

# *"Yay tətili uşaqların gözü ilə"* devizi altında festival keçirilib



Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində iyul ayının 18-də keçirilən festivalda bildirilib ki, muxtar respublikamız bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bu inkişafdan təhsil sahəsinə də xeyli pay düşüb. Belə ki, hər il təhsil müəssisələri üçün yeni binalar tikilir, həmin müəssisələr ən müasir avadanlıqlar və informasiya texnologiyaları ilə təchiz olunur.

Vurğulanıb ki, muxtar respublikamızda ilk dəfə olaraq keçən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Yay tətili uşaqların gözü ilə" devizi altında festival keçirilib. Həmin günü muxtar respublikada fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin hesabatı kimi də qeyd etmək olar.

Sonra 2016-2017-ci tədris ilində keçirilmiş müsabiqələrdə uğur qazanmış və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin seçim qrupu tərəfindən müəyyənləşdirilmiş 14 ən yaxşı dərnək üzvü, 7 ən yaxşı dərnək rəhbəri mükafatlandırılıb.

Qeyd edək ki, bu il muxtar respublikanın ayrı-ayrı rayonlarında festivalların keçirilməsi nəzərdə tutulub. Festivalların ilkin mərhələsi olaraq həmin gün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə tabe olan 5 məktəbdənkənar müəssisənin istedadlı uşaqlarının hazırladıqları əl işləri – dekorativ, tikmə, toxuma, rəsm əsərləri nümayiş etdirilib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin İdman şöbəsinin və Naxçıvan Şahmat Mərkəzinin bölmələrinin çıxışları olub.



Festivalda Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər", Estetik Tərbiyə Mərkəzinin "Fidanlar" mahnı və rəqs ansambllarının və "Gənc Heydərçilər"in çıxışları da maraqla qarşılanıb.

**Fatma BABAYEVA**

## Seminar-müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirib.*

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Yasin Əliyev, Elxan Novruzov və Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədovun çıxışları olub. Çıxışlarda hərəkətin təhlükəsizliyi və nizam-intizam qaydalarının möhkəmləndirilməsi, muxtar respublikada taksi fəaliyyətinin təkmilləşdirilməsindən söhbət açılıb. Qeyd edilib ki, bu gün sərnişinlərin mənzilbaşına vaxtında və təhlükəsiz çatdırılmasına xüsusi diqqət yetirilir. Avtomobil nəqliyyatı ilə sərnişindaşımanı yerinə yetirən sürücülərin nizam-intizam qaydalarına əməl etmələrini yoxlamaq məqsədilə reydlər keçirilir, qanun pozuntusuna yol verən sürücülər aşkar edilir.

Bildirilib ki, sərnişin və yük daşınmaları ilə məşğul olan sürücülərin başlıca vəzifələrindən biri də avtomobillərini vaxtında texniki müayinədən keçirmələridir. Bu məqsədlə müntəzəm reydlər aparılır, avtonəqliyyat vasitələrində aşkar olunan nöqsan və çatışmazlıqlar aradan qaldırılır. Nəqliyyat vasitəsi yola düşməzdən əvvəl sürücü tərəfindən onun texniki cəhətdən sazlığı yoxlanılmalı, yol hərəkətinin və daşımaların təhlükəsizliyi qaydalarına əməl edilməlidir. Nəqliyyat vasitəsi müəyyən edilmiş sürət həddini keçməməli, marşrut qrafikinə əməl olunmalıdır.

Sonra seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb.

**Nail ƏSGƏROV**

## İsti havalarda dondurma alarkən alıcılar nələrə diqqət yetirməlidirlər?

***Yay mövsümündə havaların istiləşməsi ilə əlaqədar dondurmalara tələbat və müvafiq olaraq ticarət obyektlərində bu cür məhsulların çeşidləri artır. Heç şübhəsiz ki, bol çeşid istehlakçılar üçün geniş seçim imkanı yaradır. Belə olan halda kənar təsirlərə həssas olan bu məhsulların saxlanılması və realizəsi zamanı zəruri tələblərə diqqət edilməlidir. Belə ki, dondurmalar normativ-texniki sənədlərlə müəyyən edilmiş rejimdə saxlanılmalı, istehlakçıya satış zamanı ixtisaslaşdırılmış vitrinlərdən istifadə olunmaqla təqdim edilməlidir. Bu baxımdan istehlakçılara dondurma alarkən diqqət etməli olduqları zəruri məsələlər haqqında məlumat verəcəyik.***

Dondurma yüksək qidalılıq dəyərinə malik, orqanizm tərəfindən asan həzm olunan qida məhsuludur. Onun istehsalında, əsasən, süd, şəkər, yumurta, kərə yağı, dad və ətirverici, stabilləşdirici və sair maddələrdən istifadə olunur. Süd əsasında hazırlandığından tərkibində süd yağı, zülallar, mineral maddələr, vitaminlər və sair vardır. Dondurma hər gün istehlak edilməsi vacib olan süd və süd məhsulları arasında xüsusi yerlərdən birini tutur. Yəni sərinləmək üçün yediyimiz dondurmanın insan sağlamlığında əhəmiyyətli rolu vardır.

Əsas dondurma növlərinə südlü, qaymaqlı, plombir, meyvəli-giləmeyvəli, ətirli dondurmalar aiddir. Bunların hər birinin əlavələrindən asılı olaraq müxtəlif çeşidləri istehsal edilir. Tərkibində süd olduğuna görə dondurma saxlanma şəraitindən və temperatur rejimindən asılı olaraq keyfiyyətini tez itirə bilər. Ona görə də dondurma alarkən, ilk növbədə, onun düzgün etiketləndiyinə, üzərində istehsal və saxlanma müddətlərinin göstərildiyinə, lazımi şəraitdə və temperatur rejimində saxlanıldığına fikir verin. Dondurmanın üzərində onun istehsalçısı barədə məlumat, məhsulun adı, qida əlavələri daxil olmaqla, tərkibi, xalis kütləsi, istehsal tarixi, saxlanma şəraiti və müddəti, sertifikatlaşdırıldığına dair qeyd və standartın nömrəsi göstərilməlidir.




Ədədlə satılan dondurmalar vafli, qapaqlı polistirol və parafinləşdirilmiş karton stəkanlarda, laminirləşdirilmiş sellofan paketlərdə və müvafiq səlahiyyətli orqanlar tərəfindən icazə verilən digər qablaşdırma materiallarında buraxılmalıdır.

Açıq şəkildə çəki ilə satılan dondurmalar daxildən qalaylanmış qapağı möhkəm örtülən qablarda qablaşdırılır. Qapağın altından perqament və yaxud podperqament kağızı qoyulur. Çəki ilə satılan dondurmalar daxilinə polietilen yerləşdirilmiş karton qutulara qablaşdırıla bilər.

Dondurma növündən asılı olaraq topdansatış məntəqələrində xüsusi soyuducu kameralarda mənfi 18°C-dən yüksək olmayan temperaturda aşağıdakı müddətlərdə saxlanıla bilər: *südlü dondurmalar 1 ay; meyvəli-giləmeyvəli, qaymaqlı və ətirli dondurmalar 1,5 ay; plombir dondurması 2 ay.*

İstehsalında müasir texnologiyadan istifadə edildikdə, eləcə də məhsulun saxlanma müddətinin artırılmasına zəmanət verən konservantlar, stabilizator-emulqatorlar və digər qida əlavələri standartlara uyğun olaraq əlavə edildikdə südlü, qaymaqlı və plombir dondurmaları mənfi (18±2)°C-dən yüksək olmayan temperaturda ən çoxu 10 ay saxlanıla bilər.

Üzərində istehsal və saxlanma müddətləri göstərilməyən, lazımi şəraitdə və temperatur rejimində saxlanılmayan, metal, turşumuş, qıcqırmış, acı, kif iyi və tamı verən, barmaqla basdıqda yumşaq və boş olan, üzərində buz kristalları müşahidə edilən, rəngi adına uyğun olmayan dondurmalar keyfiyyətsiz hesab olunur. Xarici görünüşcə dondurmada kəsmiyəbənzər yağlılıq, qumabənzər köpüklülük əlamətləri olmamalıdır. Dondurmanın iyi, dadı bu növ məhsula xas olmalı, kənar iy və dad verməməlidir. İstehsal tarixi qeyd olunmayan və saxlanma müddəti ötmüş dondurmaları almaqdan çəkinin.

Qeyd edək ki, yerli istehsal məhsullarımız olan dondurmalar ekoloji təmiz, əlavə kimyəvi qatqılar vurulmadan hazırlandığına görə daha dadlı və keyfiyyətlidir. Belə dondurmalar düzgün qablaşdırıldığına, üzərində onun istehsalçısı barədə məlumat, məhsulun adı, qida əlavələri daxil olmaqla tərkibi, xalis kütləsi, istehsal tarixi, saxlanma şəraiti və müddəti, sertifikatlaşdırıldığına dair qeyd və standartın nömrəsi göstərildiyinə görə qida təhlükəsizliyi baxımından daha etibarlıdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Bəşər övladı sağlam yaşamaq üçün daim yollar axtarır, nəyin faydalı və ya ziyanlı olduğunu araşdırır. Müasir dövrümüzdə elmin sürətlə inkişaf etməsi və aparılan araşdırmalar da sağlam yaşamağın formulunu müəyyənləşdirir.***

*Sağlam həyat*

## Orqanizmin inkişafında fiziki tərbiyə ilə yanaşı, qidalanma da xüsusi rol oynayır

Bu günədək hər kəs tərəfindən qəbul edilən bir reallıqdır ki, orqanizmin möhkəmlənməsi, xəstəliklərə qarşı müqavimətinin artması üçün ən səmərəli vasitə idman təmrinləridir. Ancaq idmanla məşğul olarkən hər kəs üçün fərdi xüsusiyyətləri də nəzərə almaq, verilən məşq yükünü artırıb-azaltmaqla həyata keçirmək və bəzi məqamlarda aktiv istirahətə diqqət yetirmək lazımdır. Məşğələlərin ardıcıl, davamlı olması, metodik prinsiplərlə və fiziki keyfiyyətlərlə əlaqələndirilməsi sinir sisteminin təkmilləşməsinə, orqanizmin inkişafına, yüksək bacarıq və vərdişlərin yaranmasına səbəb olur.

İdmançının fiziki hərəkətlərlə yanaşı, gigiyena, anatomiya, fiziologiya və psixologiya elmlərindən də xəbərdar olmalıdır. Əslində, bu həm də idmançı üçün dəyərli informasiya bazasıdır. Belə ki, alimlərin səyi nəticəsində orqanizmin bütün xüsusiyyətləri, quruluşu, maddələr mübadiləsi, fermentlərin və vitaminlərin əhəmiyyəti elmi sübutlarla göstərilmişdir. Bunlardan düzgün istifadə də böyük əhəmiyyət kəsb edir.

Bu məqamda qeyd edək ki, insan orqanizmini təşkil edən kimyəvi birləşmələr müxtəlif olduğundan qəbul edilən qida növünün də müxtəlifliyinə diqqət etmək lazımdır. Çünki hər bir qida növünün özünəməxsus tərkibi var. Düzgün qidalanma əqli, fiziki inkişafa, sağlamlığın qorunmasına və orqanizmin müqavimətinin artmasına səbəb olur. Məsələn, qlükoza orqanizmin hüceyrələrini enerji ilə təmin edir, çox olduqda yağa çevrilir. O, idmançıların əsas qaynağı sayılır. Çünki idmançılar üçün bədənin hər kiloqram çəkisinə bir qram protein düşməlidir. Elmi araşdırmalara görə, çəkinin həftə ərzində 300-600 qram artıb-azalması məqsədəuyğun sayılır. Ona görə də normada qidalanmaq vacibdir. Daha çox yemək isə mədə-bağırsaq, ürək-damar xəstəliklərinə və maddələr mübadiləsinin pozulmasına səbəb olur. Qida müxtəlif, keyfiyyətli, az həcmli olmalı, qida məhsullarında hansı vitaminlərin az və ya çox olduğu müəyyən edilməlidir. Gün ərzində orqanizmin vitaminlərə tələbatının az olmasına baxmayaraq, onların azlığı və ya çoxluğu bir çox xəstəliklərə səbəb olur.

Vitaminlər bədənimizin normal funksiyalarını yerinə yetirə bilməsi üçün gərəkli olan orqanik maddələrdir. Kalori ehtiva etmirlər. Bədəndə sintezlənmələri azdır, ya da heç sintezlənməzlər. Bu səbəblə xaricdən qidalar yolu ilə təmin edilirlər. Vitaminlər olmadan bir çox həyati funksiya yerinə yetirilə bilmir. Buna görə də vitaminlərin insan bədəni üçün önəmi müzakirə olunmazdır. Bu səbəblə, vitamin çatışmazlığı yaşamamaq və sağlam bir bədənə sahib olmaq üçün sağlam və balanslı şəkildə qidalanmada vitaminlərin önəmi böyükdür.

Bəzi vitaminlərin hansı qidalarda üstünlük təşkil etdiyini və orqanizmə nə qədər lazım olduğunu isə alimlər bu şəkildə müəyyənləşdiriblər:

*A vitamini:* insan orqanizmində olan A vitamini A1 petinol formada müşahidə olunur. Balıq, qaraciyər və süd yağlarında olur. Orqanizmdə çox olduqda saçlar tökülür. Az olanda maddələr mübadiləsi pozulur, dəri quruması, zəif görmə baş verir, uşaqlarda boy inkişafdan qalır. Gündəlik tələbat 1-2 milliqramdır.

*B qrupu vitaminləri:*

B6 vitamini: maddələr mübadiləsində aktiv iştirak edir. Pridoksin dərinin fəaliyyətini normallaşdırır. Az olduqda anemiya (qanazlığı) xəstəliyi yaranır. Bağırsaqlarda mikrob təsiri altında sintez olur. Gün ərzində 2-4 milliqram lazımdır.

*B15 vitamini (panqan):* ürək-damar sisteminə, böyrəküstü vəzin funksiyasına təsir göstərir, qaraciyər, piy degenerasiyasının qarşısını alır. Gündəlik tələbat 100-150 milliqramdır. Düyü və paxlalı bitki toxumlarında çox olur. B qrupu vitaminlərinin azlığı nəticəsində sinir xəstəlikləri yaranır.

*C vitamini:* bu vitaminin çatışmazlığında skorbut xəstəliyi yaranır. Dişin tökülməsi, diş ətinin şişməsi (sinqa) halları baş verir. Meyvələrdə, göyərtilərdə çox olur. Təzə şəkildə qəbul edilməsi məqsədəuyğundur. Bəzi tərəvəz məhsullarında çoxdur. Gün ərzində 50-75 milliqram lazım olur. İdmançılara məşq dövründə 100-150 milliqramadək artırmaq lazımdır.

*D vitamini:* ən çox yayılan növü D2 və D3 vitaminləridir. Diş və sümüklərin inkişafına səbəb olur. Çatışmadıqda raxit xəstəliyi yaranır. Yumurta, balıq yağı və qaraciyərdə çoxluq təşkil edir.

*E vitamini:* göyərti, fındıq, ət, süd və bitki yağlarında çox olur. Gündəlik tələbat 30 milliqramdır. Orqanizmdə yetəri qədər E vitamini olmadıqda sonrakı mərhələdə xəstəliyə çevrilə bilən əzələ zəifliyi yaranır.

*K vitamini:* orqanizmdə azlığı nəticəsində qanda protrombinin azalmasına səbəb olur. Nəticədə, qanın laxtalanma qabiliyyəti azalır. Gündəlik tələbat 10-15 milliqramdır.

Sağlamlığımızı qorumaq üçün qidalar vasitəsilə bu vitaminləri düzgün qəbul etməli, idmanla məşğul olmalıyıq. Sağlam həyat tərzi üçün bu, vacib amillər hesab edilir.

**Kamaləddin İSMAYILOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi***

## Muxtar respublikanın şəhər və rayonlarında futbol üzrə birinciliklər təşkil olunacaq

***Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın kütləvi hal alması üçün yeni idman obyektləri, zalları, futbol meydançaları tikilib gənclərin ixtiyarına verilir. Şəhər və rayonlarla yanaşı, kəndlərdə də əhalinin sağlamlığı üçün idman bazalarının quraşdırılması diqqətdə saxlanılır. Muxtar respublikanın kəndlərində idmanın, xüsusilə futbolun inkişafı üçün əlverişli şəraitin olması, eyni zamanda yeni stadionların yaradılması gənclərin idmana marağını artırır.***

Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyi keçirilməsi nəzərdə tutulub. Futbol yarışları iyulun 22-dən sentyabrın 9-dək hər həftənin şənbə günü, saat 19⁰⁰-dan 21⁰⁰-dək keçiriləcəkdir. Oyunlar dövrə sistemi olmaqla, Naxçıvan şəhəri üzrə Tumbul kənd stadionunda, Şərur rayonu üzrə Aralıq, Dəmirçi, Mahmudkənd və Yayçı kənd stadionlarında, Babək rayonu üzrə Babək qəsəbə, Nehrəm, Vayxır, Çeşməbasar kənd stadionlarında, Ordubad rayonu üzrə Kələntər Dizə kənd stadionunda, Culfa rayonu üzrə Culfa rayon Mərkəzi Stadionu, Bənəniyar və Ərəzin kənd stadionlarında, Şahbuz rayonu üzrə Şahbuz şəhər, Şahbuzkənd və Kolanı kənd stadionlarında, Kəngərli rayonu üzrə Kəngərli rayon Mərkəzi Stadionunda, Sədərək rayonu üzrə isə Sədərək kənd stadionunda olmaqla, muxtar respublika üzrə 18 stadionda təşkil ediləcəkdir.



Yarışlarda Naxçıvan şəhəri üzrə 3, Şərur rayonu üzrə 13, Babək rayonu üzrə 8, Ordubad rayonu üzrə 9, Culfa rayonu üzrə 11, Kəngərli rayonu üzrə 5, Şahbuz rayonu üzrə 10, Sədərək rayonu üzrə 2 olmaqla, ümumilikdə, 61 kəndin futbol komandası şəhər və rayon üzrə birincilik uğrunda yarışacaqdır.

Şəhər və rayonlar üzrə I, II, III yerləri tutmuş komandalar kubokla, həmin komandaların üzvləri və oyunu idarə edən hakimlər Gənclər Fondu tərəfindən geyim dəsti ilə mükafatlandırılacaqdır.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 579